## Qubada kitab təqdimatı



Bu günlərdə "Azərkitab" kitab mərkəzinin Quba filialında Azərbaycan Yazıçılar Birliyinin üzvü, istefada olan polis polkovniki Rahib Qarayevin "Qanlı hekayətlər" kitabının təqdimat mərasimi keçirilib. Qubadakı kollec və universitet tələbələrinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri rayon bələdiyyəsinin sədri Humay Məmmədova açaraq Rahib Qarayevi işıq üzü görmüş yeni kitabı münasibətilə təbrik edib, çoxdan tanıdığı müəllifə yeni-yeni yaradıcılıq uğurları diləyib.

Tədbiri aparan tanınmış şair, Əməkdar jurnalist Adil Cəmil 37 il Daxili işlər Nazirliyi sistemində müxtəlif vəzifələrdə çalışan və çalışdığı müddətdə dəfələrlə mükafatlandırılan R.Qarayevin "Qanlı hekayətlər" kitabının ideya-məzmun xüsusiyyətlərindən və əxlaqi, tərbiyəvi əhəmiyyətindən danışıb. O, real həyat hadisələrini bədii həqiqətə çevirən yazıçının yeni - üçüncü kitabını cinayətkarlığa qarşı mübarizədə "mənəvi silah" adlandıraraq belə kitablara cəmiyyətimizin, xüsusən gənclərimizin ehtiyacı olduğunu vurğulayıb.




Tədbirin iştirakçısı şair-jurnalist İradə Aytel cinayətkarlığa qarşı mübarizəyə ömrünün yarıdan çoxunu həsr edən polis polkovniki Rahib Qarayevin qanlı olaylardan, qəddarlıqdan, "ağ ölümdən" və s. bəhs edən sənədli hekayətlər toplusunu dedektiv ədəbiyyatımızın fantastik deyil, gerçək nümunəsi olduğunu söyləyib.

Qeyd edib ki, müəllif bu olayların hər birinin şəxsən iştirakçısı və şahidi olduğu üçün kitabdakı hekayətlər inandırıcı və təsirlidir. Onu da əlavə edib ki, bu lakonik hekayətlərin hər birində bir povest və roman həcminə bərabər zəngin həyat materialı var.

Sonda söz "Qanlı hekayətlər"in müəllifi Rahib Qarayevə verilib. O, keçdiyi həyat yolundan, yaradıcılıq prosesindən, çətin və şərəfli polis peşəsindən danışıb, tələbə-gəncləri maraqlandıran sualları cavablandırıb. Quba Rayon Bələdiyyəsinin sədri H.Məmmədova R.Qarayevə Qubanın rəmzi olan suvenir xalça bağışlayıb. Müəllif bu tədbirin təşkil olunmasında əməyi keçən hər kəsə, o cümlədən "Azərkitab"ın Quba filialının direktoru Xəyal Eyyubova, bələdiyyə sədri Humay Məmmədovaya minnətdarlığını bildirib, iştirakçılarla xatirə şəkli çəkdirib və onlara kitablarını hədiyyə edib.